**UOT 94 (470)**

# ŞƏRQ SLAVYANLARI VƏ BİZANS İMPERİYASI

**S.B.HÜSEYNOVA**
***Bakı Dövlet Universiteti***
***shuseynova@mail.ru***

*Şərq slavyanlarının digər slavyan xalqları və dövlətləri ilə münasibətləri uzun müddət Bizans imperiyası ilə münasibətlər siferasına daxil olmuşdur. Şərq slavyanlarının Bizans imperiyası ilə münasibətlərinin özülündə ilk olaraq ticarət maraqları və qarətçilik məqsədi durmuşdur. Bəhs olunan dövrdə Bizans da Kiyev dövləti ilə əlaqələrə can ataraq onu öz siyasi və mədəni təsir dairəsinə salmaq istəyirdi. Bu, bir tərəfdən slavyanlar tərəfindən gözlənilən təhlükənin qarşısını almaq, digər tərəfdən isə slavyanlara pravoslavlığı qəbul etdirməklə, Roma katolik kilsəsinin mövqeyini zəiflətmək məqsədi güdürdü. Ümumiyyətlə, Kiyev dövlətinin Bizansla münasibətlərini birmənalı şəkildə qiymətləndirmək olmaz. İlk baxışdan çox yaxın görünən və müasir dövrdə hətta Rusiyanın özünü Bizansın varisi sayması qədər əlaqəli görünən bu iki dövlət arasındakı münasibətlər uzun müddət ziddiyyətli xarakter daşımış və tam mənada müttəfiqlik xarakteri almamışdır.*

**Açar sözlər:** Şərq, Bizans, slavyanlar, imperiya, münasibətlər

Şərq slavyanlarının digər slavyan xalqları və dövlətləri ilə münasibətləri uzun müddət Bizans inperiyası ilə münasibətlər çərçivəsinə daxil olmuşdur. Kiyev feodal dövlətinin paytaxtı Kiyev şəhəri Bizans, ərəb və Qərb dünyası (xüsusilə Almaniya və Skandinaviya) arasında əsas ticarət mərkəzinə çevrilmiş oldu. Tezliklə burada Bizansdan gələn ədəbiyyat ilə qidalanan mədəniyyət sürətlə inkişafa başladı. Bizans rəssamları və memarları ruslara sənətin sirrlərini öyrədir, bizanslı din xadimləri isə burada Şərqi Bizans teologiyasını təbliğ edərək, yayırdılar (13, 204). Bunun nəticəsində şərq slavyanları qısa müddət ərzində sivilizasiyanın inkişaf edən mərhələsinə qədəm qoydular.

Şərq slavyanlarının Bizans imperiyası ilə münasibətlərinin özülündə ilk olaraq ticarət maraqları və qarətçilik məqsədi durmuşdur. Bizans ərazisi slavyanlar üçün qiymətli xəz və gul satışı üçün əla bazar idi, bu malların əvəzində isə imperiyadan keyfiyyətli və qiymətli parçalar və zinət əşyaları gətirilirdi. Konstantinopol Şərq slavyanları üçün bir mədəni sivilizasiya-nümunəsi olmaqla yanaşı, həm də qarətçilik üçün də əlverişli və zəngin bir məkan sayılırdı.

Məhz bu baxımdan Kiyev dövlətinin Bizans mülklərinə və Konstantinopol üzərinə yürüşləri IX əsrdən XI əsrin ortalarınadək davam etmişdir (2, 94).

Bəhs olunan dövrdə Bizans da Kiyev dövləti ilə əlaqələrə can ataraq onu öz siyasi və mədəni təsir dairəsinə salmaq istəyirdi. Bununla o, bir tərəfdən imperiya üçün slavyanlar tərəfindən gözlənilən təhlükənin qarşısını almaq, digər tərəfdən isə slavyanlara pravoslavlığı qəbul etdirməklə, Roma katolik kilsəsinin mövqeyini zəiflətmək məqsədini güdürdü (8, 84).

Bizans imperiyası şərq slavyanlarına münasibətdə Roma imperiyasının əsas prinsipi olan “parçala, hökm sür” prinsipindən də yetərincə istifadə edərək müəyyən dövrlərdə aqressiv siyasət yeritmişdir. Məsələn, əgər imperator Konstantin Baqryanarodnı “Dövləti idarəetmə qaydaları” adlı əsərində oğluna Kiyev dövlətinə qarşı peçeneqlərdən istifadə etməyi tövsiyyə edirdisə, digər tərəfdən 945-ci il sazişinə görə knyaz İqor imperiya sərhədlərini bulqarlardan qorumaq təəhhüdünü götürürdü (4, 125). İqorun oğlu knyaz Svyatoslav da Dunay bulqarlarına qarşı mübarizədə Bizans tərəfindən istifadə etmişdir (7, 98).

Bizansın Şərq slavyanlarına münasibətdə bu prinsipə əsaslanan xarici siyasəti, demək olar ki, Kiyev dövlətinin bütün mövcudluğu ərzində dəyişməz qalmışdır.

Kiyev dövləti ilə Bizans arasındakı münasibətlər həm də onların arasında bağlanan müqavilələrdə də öz ifadəsini tapmışdır. Bizans ilə Kiyev knyazları arasındakı, 911-ci il, 945-ci il və 971-ci il müqavilələrinin mətni bu günə qədər gəlib çıxmışdır (Bizans mənbələrində digər müqavilələr haqqında da xəbərlər verilmişdir).

Bizansla bağlanan müqavilələr şərq slavyanlarının dövlətinin pərakəndə, tam sabit olmayan xarakteri haqqında məlumat verir. Belə ki, müqavilələr bir çox hallarda təkcə “böyük knyazın” adndan deyil, “bütün knyazların” adından, yəni onun vassallarının da adından imzalanırdı. Məsələn, 945-ci il müqaviləsində knyaz İqorun səfirləri ilə yanaşı, onun arvadı Olqanın, oğlu Svyatoslavın da adı çəkilir (6, 128).

Müqavilələr iki dövlət arasında ittifaqın yaradılması və hərbi yürüşlərin qarşısını almaq məqsədi daşıyırdı. 911-ci il müqaviləsi rus tacirləri üçün çox əlverişli bir ticarət müqaviləsi olmaqla yanaşı, həm də hərbi məsələləri də əhatə edirdi. Belə ki, bu müqavilədə imperiya şərq slavyanları arasından xidmətə əsgər cəlb etməyi öhdəsinə götürürdü (4, 48). 945-ci il müqaviləsi isə ikitərəfli hərbi öhdəlikləri bir qədər də dəqiqləşdirirdi: “...əgər Kiyev dövləti bizdən döyüşçü istəsə, lazım olduğu qədər əsgər verəcəyik.... Əgər bizim dövlətimiz düşmənlərimizin üzərinə yürüş etmək üçün sizdən döyüşçü istəsə, sizin böyük knyaz da ... bizə istədiyimiz qədər döyüşçü verəcək” (5, 130).

Bu müqavilələrdə hərbi əməliyyatların dayanması ilə əlaqədar əsirlərin geri qaytarılması, onlar üçün ödənilən məbləğ məsələləri də öz əksini tapmışdır. Bu, 911 və 945-ci il müqavilələrinin ən əhəmiyyətli şərtlərindən idi, çünki həmin illərdə şərq slavyanlarının Bizansa yürüşlərinin əsas məqsədi də elə qul ələ keçirilməsi olmuşdu.

Kiyev dövləti ilə Bizans arasındakı əlaqələrdə əsas amillərdən birini də xristian dininin qəbulu ilə bağlı məsələlər təşkil edir. Tarix elmində uzun müddət

belə bir fikir hökmrandır ki, Kiyevə xristianlıq Bizans vasitəsilə nifuz etmişdir. Ümumiyyətlə, Kiyev dövlətinin xristianlaşdırılması mürəkkəb bir proses olmuşdur və bu proses "Ötən illərin povesti" səlnaməsində ətraflı təsvir edilmişdir.

X-XI əsrlərdə Kiyev dövlətində bir-birilə rəqabət aparan müxtəlif xristian icmaları fəaliyyət göstərmişdir. Başqa sözlə desək, qədim rus xristianlığı vəhdət təşkil etməmişdir, formalaşma mənbəyi də müxtəlif olmuşdur. Bizansdan əlavə, qədim rus xristianlığının mənbəyi qismində Bolqarstan, Moraviya, Roma, Xəzər xaqanlığı da qəbul edilir. Ancaq şərq slavyanları arasında xristianlığın yayılması bir mənalı şəkildə Bizansın xidməti hesab edilir (9, 110).

Kiyev dövlətində xristianlığın məhz pravoslav məzhəbinin qəbulu, şübhəsiz, Bizans imperiyasının siyasi nüfuzunun yüksəlişi demək idi. X əsrdə Roma katolik kilsəsinin mövqeyinin möhkəmləndiyi, Baltikyanı bölgələrə nüfuz etməyə başladığı bir dövrdə Bizans Avropada özünə dayaq yaratmaqda maraqlı idi. Belə ki, bu dövrdə qərb slavyanları roma və latın mədəniyyəti siferasına daxil edilmişdilər. Bizans mədəniyyəti təsiri isə yalnız Bolqar dövlətində tam saxlanmışdı ki, buradan da Serbiyaya yayılırdı. Ancaq Bizans öz siyasi və mədəni təsirini Xorvatiyaya yaya bilmədi. Çünki tale elə gətirdi ki, cənub slavyanları parçalandılar: Xorvatiya roma və latın mədəniyyəti sərhədlərinə, Bolqarıstan və Serbiya isə Bizans mədəniyyəti sərhədlərinə yaxın olduqlarından, anoloji şəkildə bu mədəniyyətlərlə culqaşmış oldular (6, 198). Bizansla daha uğurlu münasibətlər şərq slavyanları ilə yaranmış oldu. Ancaq şərqi slavyan xristianlığı və sivilizasiyasının Bizans xarakterinə baxmayaraq, Kiyev dövləti öz xüsusi siyasi sistemini inkişaf etdirmişdir. Bu siyasi sistemin əsasında şəhər dövlətlərin monarxik idarəçilik prinsipləri ilə uzlaşması kimi bir prinsip dayanırdı. Həmçinin Kiyevlə Bizans arasında olan uzun məsafə Qədim Rusu imperiyanın birbaşa müdaxiləsindən qoruyurdu (7, 48).

Ümumiyyətlə, Kiyev dövlətinin Bizansla münasibətlərini birmənalı qiymətləndirmək olmaz. İlk baxışdan çox yaxın olan və müasir dövrdə hətta Rusiyanın özünü Bizansın varisi sayması qədər əlaqəli görünən bu iki dövlət arasındakı münasibətlər uzun müddət ziddiyyətli xarakter daşımış, hətta Kiyev dövlətində xristianlıq rəsmi dövlət dini elan edildikdən sonra belə bu münasibətlər tam mənada müttəfiqlik xarakteri daşımamışdır. Bu bir tərəfdən Bizansın xarici siyasətinin istilaçı xarakteri ilə bağlı olmuşdursa, digər tərəfdən Kiyev dövlətinin özünün Bizansla münasibətdə ardıcıl siyasət aparmaması, diplomatiyadan və dinc münasibətlərdən daha çox hərbə üstünlük verməsi ilə bağlı olmuşdur.

Beləliklə, XI əsrin 2-ci yarısından başlayaraq Kiyev Provaslav kilsəsi Konstantinopolun tam nəzarəti altına düşür. Kiril-Mefodi ənənələrinin itməsində 1054-cü il kilsə parçalanması da böyük rol oynayır. Bu hadisədən sonra Konstantinopol patriarxlığı Kiyev dövlətində qəti mövqe qazanır.

Kiyev dövlətinin bu dini təmayülü sonralar Rusiyanın siyasi təmayülündə də çox böyük rol oynamış oldu.

## ƏDƏBİYYAT


1. Вопросы этногенеза и этнической истории славян и восточных романцев. М.: Просвещение, 1976, 373 с.
2. Горский А.А. Русь от славянского расселения до Московского царства. М.: Молодая гвардия, 2004, 262 с.
3. Дворник Ф. Славяне в европейской истории и цивилизации. М.: Языки славянской культуры, 2001, 799 с.
4. История дипломатии. М.: Аст. Москва, 2009, 943 с.
5. Сахаров А.М. Дипломатия Древней Руси. М.:Просвещение, 1980, 320 с.
6. Седов В.В. Славяне в Раннее Средневековье. М.: Наука, 1995, 480 с.
7. Левченко М.В. Очерки по истории русско-византийских отношений. М.: Акад. Наук СССР, 1956, 284 с.
8. Тысячелетие введения христианства на Руси. М.: Наука, 1988, 380 с.
9. Тихомиров М.Н. Исторические связи России со славянскими странами и Византией. М.: Наука, 1969, 420 с.


## ВОСТОЧНЫЕ СЛАВЯНЕ И ВИЗАНТИЙСКАЯ ИМПЕРИЯ

**С.Б.ГУСЕЙНОВА**

### РЕЗЮМЕ


Взаимоотношения восточных славян с другими славянскими народами и государствами долгое время входили в сферу отношений Византийской империи. В основе отношений восточных славян с Византийской империей, в первую очередь, стояли торговые интересы и грабительские цели. В указанный период и Византия, стремясь наладить связи с Киевским государством, хотела ввести его в сферу своего политического и культурного влияния. Это, с одной стороны, преследовало цель ограничить исходящую со стороны славян угрозу, с другой стороны, заставив славян принять православие, ослабить позиции Римской католической церкви. Вообще, нельзя однозначно оценивать отношения между Киевским государством и Византией. Отношения между двумя этими государствами долгое время имели противоречивый характер и в полном смысле слова не носили союзнический характер.


**Ключевые слова**: Восток, Византия, славяне, империя, отношения

## EASTERN SLAVS AND THE BYZANTINE EMPIRE

**S.B.HUSEYNOVA**

### SUMMARY


The relations of eastern Slavs with other Slavic nations and countries belonged to the sphere of the relations of the Byzantine Empire for ages. The main point is to make sure that the relations among them were based on trade interests and predatory missions. During the mentioned period, the Byzantine Empire attempted to establish diplomatic relations with Kiev by intending to keep it under its political and civilized pressure. The bottom line is that, from one side the purpose was based on preventing the forthcoming management by Slavs. The other side of the coin was prostrating the position of the Roman Catholic Church by means of making Slavs adopt orthodoxy. In total context, there does seem to be evidence that relations between Kiev and Byzantine shouldn't be evaluated unequivocally. This argument could be interpreted to imply that the relations between the two countries had a devastating impact on each other, however, at first sight, their relations seemed very close.


**Key words**: East, Byzantine, Slavs, empire, relations